# Hərb tariximizin ən möhtəşəm zəfəri

***Ermənilərin Azərbaycana qarşı düşmənçilik siyasəti 200 ildən çoxdur ki, davam edir. Çar Rusiyasının bu vətənsiz və xəyanətkar toplumu əzəli Azərbaycan torpağı Qarabağa köçürdüyü vaxtdan erməni təxribatları ara verməmişdir.***

Erməni millətçiləri məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlamış, münbit əraziləri ələ keçirməyə çalışmış, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmışlar. Azərbaycanlılara qarşı etnik dözümsüzlük sovet dövrü buyunca davam etmişdir. Bu quldurxislət insanlar fürsət düşdükcə soydaşlarımızı vəhşicəsinə qətlə yetirmiş, ata-baba yurdlarından qovmuşlar.

1988-ci ildə daha 250 min azərbaycanlı öz doğma yurdundan çıxarılmış, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının “dənizdən dənizə Ermənistan” adlı ideyasını reallaşdırmaq cəhdi ərazilərimizin 20 faizinin işğalı, 7 rayonda kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, 1 milyonadək azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir.

30 il davam edən beynəlxalq riyakarlıq münaqişənin güc yolu ilə həllini qaçılmaz etmişdir. 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev televiziya ilə xalqa müraciət edərək Ermənistan silahlı qüvvələrinin irimiqyaslı hücumuna cavab olaraq atəşkəsin pozulduğunu və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün Vətən müharibəsinə başlamalı olduğunu bəyan etdi: “Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Ali Baş Komandan müharibə dövründə dünyanın tanınmış 30-dan artıq informasiya agentliyinə diplomatik məharət, faktlar əsasında sərrast cavablarla, Azərbaycan, türk, rus və ingilis dillərində verdiyi müsahibələrlə münaqişə ilə bağlı əsil həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı, informasiya cəbhəsində ölkəmizin qələbəsini təmin etdi. “Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir”, – deyən Prezidentimizə xalqın inamı, sevgisi daha da artdı.

Azərbaycan Ordusu 44 gün ərzində torpaqlarımızı 30 illik işğaldan azad etdi. Azərbaycan–Türkiyə birliyi və əməkdaşlığı da Vətən müharibəsindəki Zəfərin



ən mühüm amillərindən oldu. Azərbaycanın açıq döyüş meydanında qazandığı qələbələr, xüsusilə, Qarabağın tacı olan Şuşanın azad edilməsi müharibənin taleyində həlledici rol oynayaraq, dünya hərb tarixinə unikal hərbi əməliyyat kimi yazıldı. Ölkəmizə sanksiyalar tətbiq etməklə təzyiq göstərməyə çalışan bəzi dövlətlər tarixi ata-baba torpaqlarının düşmən tapdağından azad edildiyini, Azərbaycan Ordusunun düşmən üzərində üstünlüyünü qəbul etməyə məcbur oldu.

Azərbaycan xalqı 30 ilə yaxın müddət ərzində həsrətlə öz ata-baba yurduna dönəcəkləri günü gözləyirdi. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirdi. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir. Azərbaycanın dövlət sərhədləri bərpa edildi. Azərbaycan Ordusunun gücü qarşısında darmadağın olan düşmənin döyüş meydanına göndərdiyi hərbi texnikasının son dayanacağı Bakıda salınan Hərbi Qənimətlər Parkı oldu. Vətən müharibəsindəki möhtəşəm qələbə milli hərb tariximizin ən böyük və ən şərəfli zəfəri sayılır.

Vətən müharibəsində igid övladlarımızın qanı-canı bahasına qazanılan müharibədə şəhidlərimizin, qazilərimizin qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirildi. Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla orden, medal və fəxri adlarla təltif olundu. Qəhrəmancasına şəhadətə ucalan igidlərimiz isə indi təkcə ailəsinin deyil, bütün xalqımızın qürur mənbəyidir.

Qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanıldı. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin ərazilərə çoxsaylı səfərləri zamanı yeni infrastruktur obyektlərinin təməli qoyulur, yeni layihələrə start verilir. Azərbaycan xalqının 30 ilə yaxın bir müddətdə düşmənin dağıdaraq xarabalığa çevirdiyi ata-baba yurdlarına yollar salınır, tunellər, yeni yaşayış binaları, məktəblər, tibb müəssisələri və digər obyektlər tikilir. Bütün bunlar dostlarımızı sevindirir, düşmənlərimizi xar edir.

***Ələkbər MİRZƏYEV,***
***Ədliyyə Nazirliyi Penitensiar Xidməti Tərbiyə işinin təşkili idarəsinin rəisi,***
***ədliyyə polkovnik-leytenantı***